# Azərbaycan Avropa strukturları ilə fəal əməkdaşlıq edir

## Siyavuş Novruzov: *«Azərbaycanın apardığı xarici siyasət bərabər tərəfdaşlıq siyasətidir»*



**«Prezident müşavirələrdə, Nazirlər Kabinetinin iclaslarında, forumlarda, müxtəlif tədbirlərdə görülən işlər, aparılan xarici siyasət, daxildə həyata keçirilən islahatlar barədə cəmiyyəti məlumatlandırır. O cümlədən Dağlıq Qarabağ münaqişəsi, münaqişənin həlli mexanizmi, müxtəlif dövlətlərin bizə münasibəti, Azərbaycanın apardığı işlər ictimaiyyətə çatdırılır. Son iclasda da prezident bir məsələni ortaya qoydu. Dövlət başçısının çıxışında hər bir vətəndaşı düşündürən, hamının müzakirə etdiyi məsələlər barədə daha artıq məlumatlı olması, neqativ halların göstərilməsi, o cümlədən bu problemlərin həlli yolları ilə bağlı aidiyyəti strukturlara tapşırıq verməsinin şahidi olduq. Bu, onu göstərir ki, prezidentin nəbzi bilavasitə Azərbaycan xalqı, vətəndaşı ilə vurur».** Bunu Yeni Azərbaycan Partiyası (YAP) icra katibinin müavini, millət vəkili Siyavuş Novruzov deyib.

**Onun sözlərinə görə, dövlət başçısı çıxışında xarici siyasətlə bağlı məsələlərə bir daha toxunaraq bəzi beynəlxalq təşkilatların Azərbaycana münasibətdə ədalətsiz mövqeyi tutduğunu bildirdi:** «Prezident çıxışında ayrı-ayrı dövlətlərin, beynəlxalq təşkilatların Azərbaycana münasibətdə ədalətsiz mövqeyi, ölkənin iqtisadi inkişafından, ictimai-siyasi sabitlikdən, xalq-iqtidar birliyindən narahat olan qüvvələrin, erməni lobbisinin fəaliyyətinə toxundu. Erməni lobbisinin Azərbaycanda olan "beşinci kalon"unun nümayəndələri ayrı-ayrı siyasi partiyalarda və QHT-də birləşib, öz millət və dövlətlərinə qarşı siyasət aparırlar. Azərbaycan I Avropa Oyunlarına ev sahibliyi edib, bu Oyunlar çox möhtəşəm keçib, yüksək təşkilatçılıq ortaya qoyub. Bu, bəzi ölkələri narahat edir. O cümlədən hüquqi əsası olmayan, heç bir beynəlxalq hüquq prinsiplərinə söykənməyən ölkələri parlamentlərinin Azərbaycan haqqında qərar qəbul edib. Dövlət başçısı da çıxışında bu məsələlərə də toxundu. Almaniya Bundestaqı ancaq alman xalqının rifahı, bu xalqın hər hansı probleminin həlli ilə bağlı qanun qəbul edə, müzakirə apara bilər. Bundestaqın başqa bir dövlətin daxili işinə qarışması, başqa bir dövlətin məsələsini müzakirə etməsi doğurdan da gülüş doğurur. Hətta BMT Təhlükəsizlik Şurası ən ali orqandır, bu qurumun qəbul etdiyi qətnamələr belə yerinə yetirilmir. Məsələn, Dağlıq Qarabağla bağlı 4 qətnamə qəbul edilib, bu qətnamələr yerinə yetirilmir. Bəzi hallarda BMT-nin icazəsi olmadan ayrı-ayrı dövlətlər başqa dövlətlərin ərazisinə müdaxilə edir, işğal edir, BMT bu dövlətlərin ərazilərinin işğaldan azad edilməsi barədə qərar verə bilmir. YaxudAvropa Şurasının özünün əvvəl qəbul etdiyi qərarlardan geri çəkilib tam ədalətsiz, hüquqa, Avropa prinsiplərinə, dəyərlərinə zidd, ümumiyyətlə, Avropa Şurasının yaranmasından indiyə qədər analoqu olmayan bir qərar çıxarması artıq o təşkilatların deqradasiyaya uğramasının nümunəsidir. Bu, artıq onların tərəfsiz yox, tərəfli olmalarının göstəricisidir. Dövlət başçısı da bunları vurğuladı».

**Siyavuş Novruzov qeyd edib ki, dövlət başçısının belə yanaşmaları Azərbaycanın xarici siyasət kursunda hansısa bir dəyişiklik deyil:** «Əslində bu, dəyişiklik deyil, Azərbaycanın mövqeyi həmişə belə olub. Azərbaycan həmişə öz haqq işini müdafiə edib. Prezident həmişə bütün mötəbər tədbirlərdə, forumlarda, dövlət başçıları ilə görüşlərdə Azərbaycanın mövqelərini, maraqlarını müdafiə edib. Bu baxımdan Azərbaycanın apardığı xarici siyasət bərabər tərəfdaşlıq siyasətidir. Azərbaycan hər bir dövlətlə qarşılıqlı münasibət, bərabər hüquqlar əsasında əlaqə qurur. İstənilən dövlətin əhalisi, ərazisi, iqtisadi gücü, hərbi imkanından asılı olmayaraq o da, Azərbaycan da dövlətdir. Hər bir dövlətin BMT-də bir səsi var, səsləri bərabərdir. Bu baxımdan Azərbaycan da bu siyasəti aparır. İkincisi, Azərbaycan çalışır ki, Ermənistan istisna olmaqla bütün qonşuları ilə normal münasibətlər qursun. Azərbaycan heç bir dövlətin maraqlarını, siyasətini yerinə yetirəsi deyil».

**YAP icra katibinin müavini bildirib ki, ölkəmiz bu gün də Avropanın enerji təhlükəsizliyində xüsusi rol oynayır, baxmayaraq ki, bununla bağlı ayrı-ayrı dövlətlər tərəfindən Azərbaycana nə qədər təzyiqlər var:** «Azərbaycan bu gün öz qazının Avropa məkanına çıxarılması, Şərqi Avropanı və Qərbi Avropanın bir hissəsini qaz asılılığından azad etmək üçün addımlar atdı. Amma bunun ekvivalentinə Avropa nə edib? Avropa din, milli ayrı-seçkilik, paxıllıq, gözü götürməməzlik siyasəti həyata keçirib. Hələ bir dəfə də Ermənistandakı vəziyyət Avropa Şurasında müzakirəyə çıxarılmayıb. Baxmayaraq ki, Ermənistandakı seçkilərdə namizədlərin biri güllələndi, digər namizədlərə qarşı təqiblər, təzyiqlər var, seçkilərdə ikili pasportlarla səsvermələr gedir. Avropa Şurasında bunu gizlin saxlayırlar, bizim deputatlar bu məsələni qaldıranda deyirlər ki, gəlin bu məsələyə toxunmayaq. Azərbaycanda heç nə olmadan insan hüquqları və digər məsələlərlə bağlı fəaliyyətə başlayıblar. Hər bir insan törətdiyi cinayətə görə məsuliyyət daşıyır və buna cavab verməlidir. Kimliyindən, partiya mənsubiyyətindən, peşəsindən asılı olmayaraq hər kəs qanun qarşısında bərabərdir, məsuliyyətini daşımalıdır. Dünya ölkələrində, Avropanın özündə, ABŞ-da da ən ağır cəza Vətənə xəyanət və vergidən yayınmadır. Azərbaycanda həbs edilənlərin böyük əksəriyyəti də bu cinayətlərlə bağlı maddələrin birini yox, bir neçəsini pozublar və Cinayət Məcəlləsinin ən azı 8, 9, 10 maddəsi ilə ittiham olunurlar. Həm də bilavasitə əməl var.

Məsələn, deyirdilər ki, Emin Hüseynov Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutunun rəhbəridir. Bəlkə Azərbaycanda kimsə gəlib mənə deyər ki, o, bir tədbir keçirib, orada iştirak edib? Kimə sual vermişəm, deyiblər ki, biz o insanın Azərbaycanda keçirdiyi tədbirin şahidi olmamışıq. Azərbaycandan kənarda da tədbir keçirməyib. Deyirlər ki, Emin Hüseynovun bir ofisi olub, oradan da çayxana kimi istifadə edib, yığışıb orada çay içib, dağılışıblar. Ancaq ona ayrılan 1,5 milyon dollar hansı məqsədlərlə istifadə edilib? Hələ bir başqa dövlət onun üçün 160 min dollar ödəməklə Azərbaycandan çıxması üçün addım atıb. Sual olunur, özün görürsən ki, bu, cinayət törədib, vergidən yayınıb. Emin Hüseynovun vergidən yayınması məsuliyyətini həmin dövlət öz üzərinə götürür və 160 min dollar ödəyir ki, bu, məsuliyyətdən yaxa qurtarsın. Bəs öz ölkəndə belə bir hal olsa və vətəndaşın bu əməli törətsə, hansı addımları atarsan? Azərbaycandan çıxan kimi də bunu CNN-ə, BBC-yə çıxarırlar. Bu, nədir? Haqsızlıq, ədalətsizlik, qanun pozana yaşıl işıq yandırmaq, digərlərini də qanunu pozmağa, iğtişaş törətməyə, verilən qrantların mənimsənilməsinə, düzgün olmayan istiqamətdə xərcləməyə yönəltməyə, ayrı-ayrı siyasi partiyaların, qəzetlərin maliyyələşməsinə yönəltməyə sövq edirlər.

Xatirimdədir, bir dəfə Almaniyanın Azərbaycandakı səfiri demişdi ki, kütləvi iğtişaşlarda iştirak edən, polisə qarşı müqavimət göstərən, vətəndaşların şəxsi əmlakına zərər vuran tələbələr universitetlərdən kənarlaşdırılacaqsa, Almaniya dərhal onu öz universitetlərinə qəbul edəcək. Bu, nə deməkdir? Artıq buradan bu ölkələrin mövqeləri bəllidir. Yəni belələrini şirnikləndirməklə anti-dövlət mövqeyinə, Azərbaycanda yaranmış ictimai-siyasi sabitliyi pozmaq yoluna təhrik, cəlb edir, yönəldirlər. Yaxud cinayət törətmiş şəxsi azad etməyi tələb edirlər. Biz hüquqi dövlətdən danışırıq, məhkəmə keçirilməlidir. Əgər məhkəmə ədalətsiz qərar çıxarırsa, bu qərardan yuxarı instansiya məhkəməsi, Avropa Məhkəməsi var. Avropa Məhkəməsi birinci instansiya məhkəməsi qərar çıxarmamış, istintaqın getdiyi anda bəyanat verir ki, filankəslər dərhal azadlığa buraxılmalıdır. Sən tədqiqat aparmırsan, bəlkə bu özü boynuna alıb, bundan məlumatın yoxdur. Hansı əsasla deyirsən ki, onlar azadlığa buraxılmalıdır?

Məsələn, Leyla Yunus və Arif Yunus Azərbaycan dövlətinin icazəsi olmadan üçüncü ölkənin ərazisi vasitəsi ilə gizlin şəkildə Azərbaycana düşmən olan və müharibə apardığı bir dövlətin ərazisinə keçib. Hesab edin ki, Böyük Vətən Müharibəsində Almaniyadan bir dəstə SSRİ-nin ərazisinə keçir, DTK-nin nümayəndələri ilə görüşür və geri qayıdır. Almaniya o insanlar haqqında hansı qərarı qəbul edəcəkdi? Almaniya o insanları divara dirəyib güllələyəcəkdi. Azərbaycan çox böyük humanistlik göstərir, indi güllələnmə yoxdur, onları istintaqa cəlb edir. Gedib Ermənistanın keçmiş milli təhlükəsizlik naziri, ayrı-ayrı kəşfiyyat orqanlarının nümayəndələri ilə görüşürlər. O da nəzərə alınmalıdır ki, Leyla Yunus vaxtilə Azərbaycan Müdafiə Nazirliyisistemində çalışıb, Azərbaycanın cəbhədə strateji mövqeləri də dəyişməyib, həmin yerindədir, orduların yerləşməsi, hərbi obyektlər və digər məsələlər var. Belə olan halda Azərbaycan nə etməlidir? Leyla Yunusa əlavə mükafat verməlidir ki, yaxşı edib Ermənistana getmisən? Bu qədər ədalətsiz yanaşma var. Konkret istənilən insanla bağlı Avropa nümayəndələri ilə oturaq, faktlarla məsələni izah edək. Onların ölkəsində bu hadisə baş versə, hansı addımları atardılar, biz də o addımları atdıq».

**Siyavuş Novruzov əlavə edib ki, Azərbaycan bütün Avropa strukturları ilə əməkdaşlıq edir:** «Avropa Birliyi ilə Azərbaycanın ticari dövriyyəsi 20 milyard dollardan yuxarıdır. Son vaxtlar Avropa Birliyinə üzv olmaq üçün müraciət edən Ukrayna və digər dövlətlərin hamısının birlikdə Avropa Birliyi ilə Azərbaycan qədər ticari dövriyyəsi yoxdur. Yəni bizim ikitərəfli münasibətlərimiz çox yaxşıdır. Amma aranı qarışdıran, erməni lobbisinin pulu vasitəsi ilə tutulan siyasətçilər, qatı xristianlıq, dini ayrı-seçkilik mövqeyindən yanaşanlar, Azərbaycanın inkişafını gözü götürməyənlər var və təbii ki, bunlar da suyu bulandırırlar».

**Siyavuş Novruzov onu da bildirib ki, Azərbaycanın öz milli-mənəvi dəyərləri, öz xüsusiyyətləri var və bunlar qorunub saxlanılıb gələcək nəsillərə ötürülməlidir:** «Belə qurma oyunlarla Azərbaycanın təbii sərvətlərindən güzəştlə istifadə etmək istəyənlər var, xarici firmaların Azərbaycanda çalışmasına münbit şərait yaratmaq istəyənlər var və həmin firmalar müəyyən siyasətçilərin arxasında dayanır. Təbii ki, biz də bu məsələdə Azərbaycan xalqının maraqlarını müdafiə edirik, başqa məsələ ola bilməz».

**CAVANŞİR**

KİVDF
www.kivdf.gov.az
**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

***Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə çap edilib***